*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 38-41* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.38*

# Mirzə Fətəli Axundzadənin şəxsi arxivi

**Nailə Səmədova**
Filologiya elmləri doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: nailesamadova@yahoo.com

**Annotasiya.** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda görkəmli dramaturq, filosof, ictimai xadim Mirzə Fətəli Axundzadənin şəxsi arxivi mühafizə olunur. Arxivdə yazıçının əsərlərinin əlyazmaları, müxtəlif şəxslərə yazdığı məktubları, ona ünvanlanan məktublar, tərcümeyi-hal sənədləri, təsviri sənədlər, ailəsinə məxsus müxtəlif materiallar və çap kitabları saxlanılır.
Arxivdəki sənədlər bölmələr üzrə qruplaşdırılmış və hər bir sənədin saxlanıldığı qovluqda saxlama vahidi, həcmi, hansı dildə və əlifbada yazıldığı göstərilmişdir.
Məqalədə hər bir bölmə və bölmədaxili hissələrdə saxlanılan sənədlər haqqında məlumat verilmiş və arxivin yenidən təsvir edilməsinin vacibliyi nəzərə çatdırılmışdır.
**Açar sözlər:** Mirzə Fətəli, arxiv, sənəd, təsvir, məktub

**Məqalə tarixçəsi:** göndərilib – 13.04.2023; qəbul edilib – 28.04.2023

# Personal archive of Mirza Fatali Akhundzade

**Naila Samadova**
Doktor of Philological Sciences
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: nailesamadova@yahoo.com

**Abstract.** The personal archive of the prominent playwright, philosopher, and public figure Mirza Fatali Akhundzade is held in the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. The archive contains manuscripts of Akhundzade's works, letters he wrote to various individuals, letters addressed to him, biographical documents, descriptive documents, and materials belonging to his family, as well as printed books.
The documents in the archive are organized into sections, with each folder indicating the storage unit, volume, language, and alphabet in which the document is written.
The article provides information about the documents stored in each section and sub-section and highlights the importance of re-description of the archive, as some documents were not previously included in descriptive books.
**Keywords:** Mirza Fatali, archive, document, description, letter

**Article history:** received − 13.04.2023; accepted − 28.04.2023

## Giriş / *Introduction*

Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən 2 saylı arxivi 838 saxlama vahidindən ibarətdir. Zəngin arxivə malik olan Mirzə Fətəli, sənədlərinin əksəriyyətini özü səliqəyə salaraq, bir neçə dəfə onların üzünü köçürmüşdür. Təsadüfi deyil ki, böyük ədibimiz Yusif Vəzir Çəmənzəminli Azərbaycan müəlliflərindən Mirzə Fətəli Axundzadənin, rus müəlliflərindən isə İ.S.Turgenevin arxiv tərtib etməsini təqdirəlayiq hesab etmiş və arxiv toplamağı yazıçı mədəniyyətinin meyarı olduğunu bildirmişdir.

## Əsas hissə / *Main Part*

Mirzə Fətəlinin arxivindəki sənədlər 7 bölmədə qruplaşdırılmışdır. I bölməyə yazıçının povest və pyesləri, fəlsəfi, tənqidi və tarixi əsərləri, yeni əlifba layihələri, poema və şeirləri, habelə, tərcümeyi-hal və xatirələrinin əlyazmaları daxil edilmişdir. Bu bölmədə həmçinin onun əsərləri haqqında qeydlərin avtoqraf nüsxələri də saxlanılır.

Mirzə Fətəli Axundzadənin yaradıcılığının öyrənilməsində məktubların əhəmiyyəti əvəzsizdir. Yazıçı müxtəlif şəxslərə yazdığı məktubların surətini köçürərək arxivində saxlamışdır. II bölmədə 40 saxlama vahidi altında mühafizə edilən məktublar konkret şəxslərə, 14 saxlama vahidi altında qorunan məktublar isə ad və ya soyadları naməlum olan şəxslərə ünvanlanmışdır. Məktubların böyük qismi Mirzə Fətəli tərəfindən ümumi dəftərlərə köçürülmüşdür. 265, 198 və 106 vərəqdən ibarət olan bu dəftərlərdə müxtəlif qeydlər də vardır. Məktublar Azərbaycan, türk, rus, ərəb və fars dillərindədir. Naməlum şəxslərə yazılan məktublar rus, fars və fransız dillərindədir. “Mirzə Fətəli Axundov arxivinin təsviri” kitabının ilk nəşrində bəzi məktubların kimə aid olduğu ehtimal şəklində göstərilmişdir.

Arxivdə M.F.Axundzadəyə ünvanlanan məktublar üstünlük təşkil edir və 43 saxlama vahidi altında, III bölmədə cəmlənmişdir. Məktubların böyük qismi yazıçının oğlu Rəşid bəy Axundovdandır. Rus dilində olan bu məktublar Brüsseldən göndərilmişdir. Ata ilə oğul arasında təxminən 5 il davam edən yazışmalar Mirzə Fətəlinin tərbiyə üsulunu izləməyə imkan verir, onun böyük insan, səmimi dost, qayğıkeş ata olduğunu bir daha nəzərə çatdırır. Ədibin zəngin epistolyar irsi Əlyazmalar İnstitutunun mərhum əməkdaşı Eldar Cəmilzadə tərəfindən tədqiq olunmuş və 1991-ci ildə namizədlik dissertasiyası müdafiə edilmişdir.

Yazıçının arxiv sənədlərinin IV bölməsini “Tərcümeyi-hal sənədləri” təşkil edir. Bu bölmənin “Şəxsi sənədlər” hissəsində Mirzə Fətəliyə məxsus şəhadətnamə, Tubu xanımla evlənməsinə aid nikahnamə, orden vəsiqələri, qəbzlər, fərmanlar, “Ədəbi və ictimai fəaliyyəti ilə əlaqədar materiallar” hissəsində müxtəlif şəxslərə göndərdiyi ərizələr, təliqələr, “Yubileyi münasibətilə materiallar” hissəsində rəy, məlumat, Yenikolopovun Axundzadə ilə əlaqədar topladığı materialların surəti və digər dəyərli sənədlər saxlanılır.

Arxivin V bölməsində “Təsviri sənədlər” yerləşdirilmişdir. Burada yazıçının özünün, həyat yoldaşı Tubu xanımın, oğlu Rəşid bəyin, qızı Nisə xanımın, nəvələrinin, əsərlərində iştirak edən aktyorların, Abdulla bəy Asinin, A.Bakıxanovun, Əbdülxalıq Cənnətinin, Ə.Qəmküsarın, Fatma xanım Kəminənin, M.Ə.Sabirin, A.Səhhətin, M.T.Sidqinin, M.R.Fənanın, M.M.Nəvvabın, M.Hadinin, S.Ə.Şirvaninin, M.Ş.Vazehin və digər şəxslərin, eləcə də müxtəlif məkanların fotoları vardır. 53 saxlama vahidi altında mühafizə edilən fotoların ümumi sayı 250-dən artıqdır.

Arxivin “Ailəvi sənədlər” adlanan VI bölümündə Mirzə Fətəlinin ailəsinə məxsus müxtəlif materiallar – təliqələr, qəbzlər, yazılı məruzələr, sığorta vərəqələri, Rəşid bəyin anasına, bacısına, dayısına məktubları və digər müxtəlif məzmunlu sənədlər saxlanılır. Bu bölmədə həmçinin müxtəlif şəxslərin Rəşid bəyə ünvanladığı məktubları da yer almışdır.

Fonda daxil olan müxtəlif sənədlər VII bölmədə qərarlaşmışdır. Burada Qasım bəy Zakirin divanının, Mollayi Ruminin müstəzadının, müxtəlif mənzum parçaların Azərbaycan, ərəb, fars və rus dillərində əlyazmaları mühafizə olunur. Arxivdə həmçinin müxtəlif şəxslərin məktublaşmaları, müxtəlif sənədlər və qeydlər, müxtəlif məzmunlu materiallar, elannamələr, müxtəlif qəzetlər və jurnallar, eləcə də qəzet və jurnallardan kəsilmiş parçalar yer almışdır. Çap kitabları hissəsində M.F.Axundzadənin sağlığında nəşr olunmuş Ənvərinin, Sədinin və Hafizin divanları, ərəb dilində sərf-nəhv, Firdovsinin 1850-ci ildə fars dilində çap olunmuş "Şahnamə"si, rus, ərəb və fars dillərində olan çoxsaylı kitablarla yanaşı, yazıçının 1938-ci ildə nəşr olunmuş əsərlərinin 3 cildliyi, Həmid Araslının, Feyzulla Qasımzadənin, Bəbir Məmmədzadənin, Mikayıl Rəfilinin böyük dramaturq haqqında monoqrafiyaları da saxlanılır.

Arxivdə həmçinin Yenikolopovun Mirzə Şəfi Vazeh haqqında 3 saxlama vahidi altında mühafizə edilən irihəcmli tədqiqatları, Mirzə Fətəli haqqında araşdırmaları, alimin azərbaycanlı həmkarları ilə məktublaşmaları da yer almışdır. Şübhəsiz ki, XX yüzilin əvvəllərində nəşr olunmuş kitablar, tədqiqatlar, Yenikolopovun məktublaşmaları yazıçının arxivinə sonradan daxil edilmişdir.

M.F.Axundzadə arxivinin təsviri bir neçə dəfə nəşr olunmuşdur. Belə ki, 32 şəxsi fonddan ilk təsvir olunan arxiv Mirzə Fətəli Axundzadəyə məxsusdur. Arxiv Respublika Əlyazmalar Fondunun, indiki Əlyazmalar İnstitutunun əməkdaşı Ağaəmi İbrahimov tərəfindən təsvir olunaraq, 1955-ci ildə nəşr olunmuşdur [2]. Kitab düzəliş və əlavələrlə birlikdə Əİ-nun əməkdaşı A.Avadyayevin tərcüməsində 1962-ci ildə yazıçının 150 illik yubileyi münasibətilə rus dilində nəşr olunmuşdur [4]. 2012-ci ildə M.F.Axundzadənin 200 illik yubileyi ilə əlaqədar ədəbiyyatşünas alim M.Məmmədova 1955-ci ildə nəşr olunan təsvir kitabının üzərində işləyərək onu yenidən çap etdirmişdir [3]. Əvvəlki nəşrlərdə olan köhnə inventar nömrələri bu nəşrdə yeniləri ilə əvəz edilmiş, təsvir prinsipi fərqli şəkildə verilmişdir.

Mirzə Fətəli arxivində Azərbaycan, türk, rus, ərəb, fars dillərində nəşr olunmuş kitablarla yanaşı, fransız dilində kitablar, jurnallar, qəzetlər mühafizə olunur. Lakin bunların təsviri heç bir nəşrdə yer almamışdır. Onu da qeyd etmək lazımdır ki, arxivdə saxlanılan rus dilində olan kitabların sayı 1955-ci il nəşrində 84, 2012-ci il nəşrində 61, Şərq dillərində olan kitabların sayı 1955-ci il nəşrində 51, 2012-ci il nəşrində 35 olduğu göstərilmişdir. Bütün bunlardan əlavə arxivdəki bir çox sənədlər təsvirdən kənarda qalmışdır.

## Nəticə / *Conclusion*

Mirzə Fətəli Axundzadə arxivində saxlanılan sənədlərlə təsvir kitablarının müqayisəli şəkildə araşdırılması onu deməyə əsas verir ki, bu sahədə iş bundan sonra da davam etdirilməlidir. Ədibin irsinin öyrənilməsində sözügedən arxiv təsvirinin 1955, 1962, 2012-ci illər nəşrlərinin əhəmiyyəti danılmazdır. Lakin arxiv tam, əhatəli, sistemli, elmi, eləcə də böyük ədibin səliqəsinə uyğun təsvir edilsə, daha yaxşı olar.

## Ədəbiyyat / *References*

1. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Fond 2, 838 saxlama vahidi.
2. İbrahimov, A. M.F.Axundov arxivinin təsviri. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1955.
3. İbrahimov, A., Məmmədova M. Mirzə Fətəli Axundzadə arxivinin izahlı təsviri. – Bakı: Elm və təhsil, 2012.
4. Ибрагимов, А. Описание архива М.Ф.Ахундова. – Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1962.

## Личный архив Мирзы Фатали Ахундзаде

**Наиля Самедова**
Доктор филологических наук
Институт рукописей имени Мухаммеда Физули НАНА. Азербайджан.
E-mail: nailesamadova@yahoo.com

**Резюме.** Личный архив видного драматурга, философа, общественного деятеля Мирзы Фатали Ахундзаде хранится в Институте Рукописей имени Мухаммеда Физули НАНА. В архиве хранятся рукописи произведений писателя, письма его и адресованные ему, биографические документы, фотодокументы, различные материалы, принадлежащие его семье, и изданные произведения.

Документы в архиве сгруппированы по разделам, а на папке, где хранится каждый документ, указана единица хранения, объем, алфавит и язык, на котором написан документ.

В статье представлена информация о документах, хранящихся в каждом разделе и подразделах, и из-за отсутствия некоторых документов в описательных книгах, отмечена важность повторного описания архива.

**Ключевые слова:** Мирза Фатали, архив, документ, описание, письмо